# Hüquq və vergi məsələləri üzrə bülleten

Azərbaycan Respublikası qanunvericiliyində baş vermiş dəyişikliklərə dair yenilənmiş bələdçi



# Vergi və hüquq yenilikləri

Bu buraxılışda aşağıdakı məsələlərin icmalını diqqətinizə çatdırmaq istərdik:

- Yüksəkixtisaslı miqrantlar üçün imtiyazlar və azadolmalar qəbul olunmuşdur.
- Rusiya vətəndaşları və Rusiyada daimi yaşayan vətəndaşlığı olmayan şəxslər üçün Azərbaycanda yeni müvəqqəti olma müddəti
- Azərbaycanın Rəqəmsal İnkişaf Konsepsiyası təsdiq olunmuşdur.
- Mərkəzi Bank: Faiz dəhlizinin parametrləri

## Yüksəkixtisaslı miqrantlar üçün imtiyazlar və azadolmalar qəbul olunmuşdur.

*29 dekabr 2024-cü il tarixində "Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu" ("**Dəyişikliklər**") qəbul edilmişdir.*

Dəyişikliklərdə yüksəkixtisaslı miqrantların anlayışı "yüksəkixtisaslı mütəxəssislərin Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyətinə cəlb edilməsi imkanlarının genişləndirilməsi məqsədilə tətbiq edilən proqram çərçivəsində müraciətləri müsbət cavablandırılmış əcnəbilər və vətəndaşlığı olmayan şəxslər" kimi müəyyən edilmişdir.

Dəyişikliklərə əsasən, yüksəkixtisaslı miqrantlara aşağıdakı imtiyazlar və güzəştlər verilmişdir:

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi əmək miqrasiyası kvotasından azad olunma;
- Mütəxəssis olduğu sahə üzrə fəaliyyət göstərdikdə iş icazəsindən azad olunma;
- Müvəqqəti yaşamaq üçün icazələrin müddətinin 3 ilədək müəyyən olunması (ümumi qayda olaraq bu müddət 1 ildir), əsaslı səbəblər olduqda hər dəfə 3 ilədək müddətə uzadılma (ümumi qayda olaraq bu müddət 2 ildir);
- Daimi yaşamaq icazəsi almaq üzrə müraciət edilərkən Azərbaycan qanunvericiliyində nəzərdə tutulmuş hüquq və vəzifələrin, habelə Azərbaycanın dövlət dili ilə bağlı biliyin yoxlanılması tələbindən azad edilməsi.

Bununla yanaşı, yüksəkixtisaslı miqrantlar, habelə onların 23 yaşına çatmamış övladları, həyat yoldaşları və digər ailə üzvləri üçün qeyd edilən icazələrə baxılma müddətləri aşağıdakı qaydada azaldılmışdır:

- Müvəqqəti yaşamaq üçün icazə üzrə müraciətlərə baxılması – 5 iş günü azaldılmışdır;
- İş icazəsi üçün müraciətlərə baxılması – 5 iş günü azaldılmışdır;
- Daimi yaşamaq üçün icazə üzrə müraciətlərə baxılması – 10 təqvim günü azaldılmışdır.

Bu Dəyişikliklər 29 dekabr 2024-cü il tarixində qüvvəyə minmişdir.

## Rusiya vətəndaşları və Rusiyada daimi yaşayan vətəndaşlığı olmayan şəxslər üçün Azərbaycanda yeni müvəqqəti olma müddəti

*29 dekabr 2024-cü il tarixində "Azərbaycan Respublikasına gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün müəyyən edilmiş müvəqqəti olma müddətləri ilə bağlı qarşılıqlı olaraq fərqli qaydaların müəyyən edilməsi haqqında" Qərar ("Qərar") Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul olunmuşdur.*

Qərara əsasən, Rusiya Federasiyasının vətəndaşları və Rusiya Federasiyasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər təqvim ili ərzində 90 günə qədər Azərbaycan Respublikasında vizasız qala bilərlər. Əvvəllər bu müddət 180 gün olaraq müəyyən edilmişdi.

Bu Qərar 1 yanvar 2025-ci il tarixindən qüvvəyə minmişdir.

## Azərbaycanın Rəqəmsal İnkişaf Konsepsiyası təsdiq olunmuşdur.

*16 yanvar 2025-ci il tarixində "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"nın təsdiq edilməsi haqqında Fərman ("Fərman") Azərbaycan Respublikası Prezidenti tərəfindən qəbul edilmişdir.*

Rəqəmsal İnkişaf Konsepsiyasının ("Konsepsiya") əsas hədəfi rəqəmsal texnologiyaların tətbiqi ilə dövlət idarəetməsini təkmilləşdirmək, iqtisadi inkişafı sürətləndirmək və vətəndaşların həyat keyfiyyətini yaxşılaşdırmaqdır.

Konsepsiyanın məqsədi dövlət xidmətlərinin müasirləşdirilməsi, rəqəmsal savadlılığın artırılması, kibertəhlükəsizliyin təmin edilməsi, informasiya və kommunikasiya texnologiyaları infrastrukturunun və startapların dəstəklənməsidir. Bundan əlavə, o, rəqəmsal platformalara keçidi, dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi, habelə süni intellekt və blokçeyn kimi yeniliklərin tətbiqini vurğulayır.

Əlavə olaraq, dövlət idarəetməsi rəqəmsal texnologiyalara əsaslanan daha çevik və şəffaf proseslər vasitəsilə həyata keçiriləcək. Bununla da, kağız əsaslı sənədləşmə tamamilə aradan qaldırılaraq "rəqəmsal

hökumət"ə tam keçid baş verəcək. Böyükhəcmli məlumatların təhlili, süni intellekt və bulud texnologiyaları da tətbiq olunacaq.

Fərman 16 yanvar 2025-ci il tarixində qüvvəyə minmişdir.

## Mərkəzi Bank: Faiz dəhlizinin parametrləri

*22 yanvar 2025-ci il tarixində Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin "Faiz dəhlizinin parametrləri haqqında" Qərarı ("Qərar") qəbul edilmişdir.*

Qərara əsasən, uçot dərəcəsi 7.25% səviyyəsində dəyişilməz olaraq saxlanılmışdır. Əlavə olaraq, faiz dəhlizinin aşağı limiti 6.25% və yuxarı limiti isə 8.25% səviyyəsində dəyişilməz olaraq qalmışdır.

Uçot dərəcəsinin dəyişməz saxlanılması ilə bağlı qərar faktiki və proqnozlaşdırılan inflyasiyanın hədəf daxilində (4±2%) olması və makroiqtisadi meyillərin təhlili nəzərə alınmaqla qəbul olunmuşdur.

Əlaqə üçün:

Biz hazırkı icmalın sizin üçün faydalı olmasına ümid edirik. Daha ətraflı məlumat üçün aşağıdakı mütəxəssislər ilə əlaqə saxlamağınız xahiş olunur:



Arzu Hacıyeva
Partnyor, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
arzu.hajiyeva@az.ey.com



Məmməd Balacanov
Baş Menecer, Hüquq xidmətinin rəhbəri, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
mammad.balajanov@az.ey.com

EY | Daha yaxşı iş dünyasını qururuq

EY şirkəti, müştərilərə, əməkdaşlara, cəmiyyətə və planetimizə yeni faydalar təqdim etməklə və kapital bazarlarına inamı artırmaqla daha yaxşı iş dünyasını qurmağa çalışır.

Geniş məlumat bazası, süni intellekt və qabaqcıl texnologiyaların dəstəyi ilə əməkdaşlarımız müştərilərə gələcəyə inamla addımlamağa, bu günün və sabahın ən mühüm məsələlərinin həll yollarını tapmağa kömək edir.

EY şirkətinin mütəxəssisləri audit, konsaltinq, vergi, strategiya və əməliyyatlar daxil olmaqla fərqli sahələrdə çeşidli xidmətlər göstərirlər. Sənaye təcrübəsindən, qlobal miqyasda inteqrasiya olunmuş, multidissiplinar şəbəkədən və vahid ekosistemdə çalışan fərqli tərəfdaşlarımızın köməyindən faydalanaraq biz 150-dən çox ölkə və ərazilərdə xidmətlər təklif edirik.

Biz birlikdə gələcəyi formalaşdırmaq missiyamızı inamla yerinə yetiririk.

EY adı, hər biri müstəqil hüquqi şəxs olan Ernst & Young Qlobal Limited qlobal şirkətlər şəbəkəsinin bir və ya daha çox üzvünə aiddir. Ernst & Young Global Limited, üzvlərinin zəmanətləri ilə məhdudlaşan Böyük Britaniya şirkəti olaraq, müştərilərə xidmət göstərmir. EY şirkəti tərəfindən fərdi məlumatların toplanması və istifadə edilməsinə dair məlumatlar, habelə məlumatların qorunması haqqında qanunvericiliyə uyğun olaraq fiziki şəxslərin hüquqları ey.com/privacy səhifəsində təqdim edilir. EY firmaları yerli qanunlarla qadağan olunduğu ərazilərdə hüquq xidmətləri göstərmir. Daha ətraflı məlumat almaq üçün buraya müraciət edə bilərsiniz: ey.com

© 2025-ci il Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Bütün hüquqlar qorunur.

Hazırkı nəşr yalnız məlumat məqsədilə hazırlanıb və uçot, vergi, hüquqi və ya digər peşəkar məsləhətin əvəzi kimi nəzərdə tutulmur. Konkret məsləhətlər almaq üçün məsləhətçilərə müraciət edin.

ey.com/az